# 119 kitabxanadan yeddisi



***İnanılası deyil, amma fakt faktlığında qalır. Kəlbəcərin süqutuna qədər rayonda 119 kitabxana fəaliyyət göstərirdi. O bu göstəriciyə görə respublikanın bütün bölgələrindən seçilirdi.***

Belə ki, heç bir rayon və şəhərdə bu qədər kitabxana yox idi. Bu gün... Bu gün isə əhalisi respublikanın bütün rayon və şəhərlərinə səpələnmiş Kəlbəcərdə cəmi 7 kitabxana fəaliyyət göstərir. MKS üzrə 36 min kitab fondu var. Onlardan 7800 nüsxəsi latın qrafikalı ədəbiyyatdır.

Mərkəzi kitabxana sisteminə Sadiqə Quliyeva rəhbərlik edir. Quliyeva Sadiqə Hacı qızı 1970-ci ildə Goranboy rayonunun Sarov kəndində anadan olub. 1989-cu ildə Ə.Hüseynzadə adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə daxil olub. 1987-ci ildən kitabxanaçı işləyib. 1994-cü ildə universiteti bitirib, ailə həyatı quraraq Kəlbəcərə köçüb, 10 il kitabxanaçı işləyib. 2004-cü ildən MKS-in direktorudur.

Söhbət zamanı Sadiqə xanım kollektivin gördüyü işdən danışdı. Bildirdi ki, son vaxtlar kitabxanalarımızın yeni ədəbiyyatla zənginləşdirilməsi, oxuculara mədəni xidmətin yüksəldilməsi istiqamətində lazımi tədbirlər görülmüşdür.

Buna nümunə kimi yeni kitabların təqdimatı və sərgisini, oxucu konfranslarını, foto stendləri, tarixi-əlamətdar günlərlə bağlı, yazıçı və şairlərimizin yubileyləri ilə əlaqədar təşkil olunan disput və görüşləri göstərmək olar.

Təbii ki, kitabxanamızın daha zəngin olacağı qabaqdadır. Sağlıq olsun, Kəlbəcərdə də görüşərik. Onda işimizə bağlı olduğumuza əmin olarsınız...

Amma bu günləri də unutmaq lazım deyil. İstərdim Gəncədə bizə bu cür şərait yaradanların, qayğı göstərənlərin hamısına- nazirliyimizə, icra hakimiyyətinə, icra başçısının müavini Novruz Çıraqova və rayon mədəniyyət və turizm şöbəsinin müdiri Saday Musayevə dərin təşəkkürümü bildirim. Axı biz burada məskunlaşanda bu gördüklərimizin heç biri yox idi...

***Cənab prezidentimizə minnətdarıq ki, bu qədər kitab hədiyyə edib. Bütün bunlar bizi daha yaxşı çalışmağa, xidmətin səviyyəsini yüksəltməyə ruhlandırır.***

**● Ş.Əkbərova**